**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ABDULLA BƏY ASİNİN LİRİKASI

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Mədinə Ağakərim qızı Cabarova**

Fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Sumqayıt – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Türkdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir

| | |
|---|---|
| Elmi rəhbər: | Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmlər doktoru, professor **Möhsün Zellabdin oğlu Nağısoylu** |
| Rəsmi opponentlər: | Filologiya elmlər doktoru, professor **İslam Eynəli oğlu Qəribov** |
| | Filologiya elmlər doktoru, professor **Zahid Abdulla oğlu Xəlilov** |
| | Filologiya üzrə fəlsəfə doktoru **Könül Sabir qızı Bağırova** |

Azərbycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Sumqayıt Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | Filologiya elmlər doktoru, professor **Ramazan Salam oğlu Məmmədov** |
| Dissertasiya şurasının elmi katibi: | Filologiya üzrə fəlsəfə doktoru,dosent **Böyükxanım İbrahim qızı Eminli** |
| Elmi seminarın sədri: | Filologiya elmlər doktoru, dosent **Nigar Vəliş qızı İsgəndərova** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsr Azərbaycan ədəbiyyatını tarixi-xronoloji, forma və məzmun, ədəbi əlaqələrin yeni istiqamətlərinin güclənib şaxələnməsi və s. xüsusiyyətlərinə görə şərti olaraq iki mərhələyə bölmək olar: əsrin birinci yarısında qələmə alınmış ədəbi nümunələr və XIX yüzilliyin ikinci yarısında yazılmış əsərlər. Hər iki mərhələyə klassik ədəbi ənənələrlə yanaşı dövrün tarixi hadisələri, ümumilikdə XIX əsri səciyyələndirən ictimai-siyasi vəziyyət öz təsirini göstərmişdir. Mövcud hadisələr Azərbaycan xalqının ictimai-siyasi həyatında bəzi ziddiyyətlərlə yadda qalsa da, bu hadisələrin ədəbi inkişafın dinamikasına müsbət təsiri danılmazdır.

XIX əsr Azərbaycan poeziyası qədim və zəngin ədəbiyyatımızın, eləcə də Şərq şeirinin xüsusiyyətlərini özündə cəmləşdirir, eyni zamanda klassik ənənələr, folklor və aşıq yaradıcılığına məxsus realist meyillər əsasında inkişaf edirdi. Əsrin birinci yarısında klassik poeziya üslubunda yazan şairlərin üstünlüyü daha çox hiss olunurdu.

XIX əsrin II yarısında maarifçilik hərəkatı öz miqyasını genişləndirməyə, eyni zamanda bədii ədəbiyyatın ideya-məzmun baxımından zənginləşməsinə güclü təkan verdi. Əsrin 50-60-cı illərində böyük mütəfəkkir Mirzə Fətəli Axundzadənin timsalında ədəbiyyatşünaslığın yeni bir sahəsi olan ədəbi tənqid meydana çıxdı.

Azərbaycan çar Rusiyası tərəfindən işğal olunduqdan sonra xalqımızın sosial-siyasi və tarixi-mədəni həyatında bir sıra mühüm dəyişikliklər baş verdi, yeniliklər yarandı. Ədəbi-mədəni mühitdə tənqid və satiranın güclənməsi, maarifçilik hərəkatının genişlənməsi poeziyaya da önəmli təsir göstərdi. Bəşəri ideya və humanist duyğular, milli ruh və xəlqi kalorit bu dövrün poetik mətnlərində də bu və ya digər dərəcədə əks olunurdu. Lakin vaxtı keçmiş klassik ədəbi ənənələr, nəzirəçilik, xüsusilə Füzuli yaradıcılığının təsiri yenə də güclü idi. Qeyd olunduğu kimi, bu cür mütərəqqi ideyaları davam və inkişaf etdirmək klassik modellər çərçivəsində müəyyən qədər məhdudlaşsa da, işğaldan sonra yaranmış fərqli bir sosial-siyasi

şəraitdə yeni yaradıcılıq axtarışları güclənirdi. Dövrün şairlərinin, o cümlədən Abdulla bəy Asinin yaradıcılığında da bu xüsusiyyətləri aydın görmək olar. Mövzunun aktuallığını şərtləndirən əsas cəhətlərdən biri də budur. Şair qısa – cəmi otuz dörd il ömür sürsə də, zəngin bir yaradıcılıq yolu keçmişdir. Klassik şeirin on beşə yaxın janrında yazıb yaradan Abdulla bəy Asi lirik şair kimi tanınsa da, onun məhəbbətin tərənnümünə həsr olunmuş şeirlərində aşiqin iztirab və həyəcanları, mənəvi yaşantıları yalnız gözəlin ona çəkdirdiyi çəfalarla məhdudlaşmır, ictimai haqsızlıqlar, dövrün xüsusiyyətləri də lirik qəhrəmanın daxili əzablarını artırır. Bu baxımdan onun yaradıcılığı müasirliyi və novatorluğu ilə zəngin səciyyə daşıyır. Milli-mənəvi və islami dəyərlər, türk-müsəlman mədəniyyətinin zənginliyi, poetik məktublaşmalarında şairin müasirlərinə olan münasibəti və ədəbi əlaqələri, dünyagörüşü və s. məsələlər elmi-nəzəri səviyyədə araşdırma tələb edir. Bu, dissertasiya mövzusunun elmi əhəmiyyətini bir qədər də artırır.

Asinin həyat və yaradıcılığı, "Məclisi-fəramuşan" ədəbi məclisindəki fəaliyyəti haqqında Azərbaycan ədəbiyyatşünaslığında müəyyən tədqiqat işləri aparılsa da, bu sahədə hələ də müəyyən boşluqlar mövcuddur. Bu baxımdan sənətkarın ədəbi irsinin toplanması, nəşri və tədqiqi həm şairin həyat və yaradıcılığı ilə bağlı qaranlıq qalan bəzi məqamlara aydınlıq gətirmək, həm də XIX əsrin II yarısında Azərbaycan ədəbiyyatının elmi-ədəbi mənzərəsini yaratmaq istiqamətində münbit zəmin rolunu oynaya bilər. Həmçinin bu araşdırma həmin mərhələdəki tarixi-mədəni mühiti daha ətraflı işıqlandırmaq baxımından da elmi aktuallıq kəsb edir.

Abdulla bəy Asi haqqında ilkin məlumatlara Məhəmməd ağa Müctəhidzadənin "Riyazül-aşiqin", Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" və Firudin bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsərlərində rast gəlinir. Adları sadalanan əsərlərdə şair haqqında bəzi məlumatlar verilmiş, şeirlərindən nümunələr gətirilmişdir. Asi irsinə yüksək qiymət verən, şairi böyük nəzm ustası kimi dəyərləndirən ilk tədqiqatçı Firudin bəy Köçərli olmuşdur. O özünün "Azərbaycan ədəbiyyatı" kitabının II cildində Asinin çətin və məşəqqətli həyatı, ölüm tarixi, yaradıcılıq irsi haqqında ətraflı

məlumat vermiş, kitaba həmçinin şairin digər məclis üzvləri olan müasirləri ilə poetik məktublarını da daxil etmişdir. Asinin həyat və yaradıcılığı haqqında müxtəlif fikir söyləmiş tədqiqatçılar sırasında Əlabbas Müznibin, Salman Mümtazın, Hüseyn Əfəndi Qayıbovun, Bəylər Məmmədovun, Kamran Məmmədovun, Mustafa Mustafayevin adlarını çəkmək olar. Prof. Raqub Kərimovun bu sahədə apardığı araşdırmalar təqdirəlayiqdir. Dissertasiyada tədqiqata cəlb olunan Abdulla bəy Asinin lirik yaradıcılığı müxtəlif aspektlərdən ilk dəfədir ki, araşdırılır. Şairin lirikasının özünəməxsus sənət keyfiyyətləri, dini şeirləri, həcvləri, bəhri-təvilləri, cığatay dilində yazdığı qəzəlləri, ədəbi təsir dairəsi və s. mühüm problemlərdir. Bu baxımdan dissertasiyada adları qeyd olunan və digər müəlliflərin əsərlərinə müraciət olunmuş, müəyyən məsələlərə münasibət bildirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırmanın obyekti Abdulla bəy Asinin poetik irsidir. Şairin həyatı, mühiti, ədəbi yaradıcılığının sənətkarlıq xüsusiyyətlərinin araşdırılması isə tədqiqatın predmetləridir. Şairin xalq və klassik şeir üslubunda yazdığı şeirlər, bu şeirlərin ideya-bədii məzmunu, novator xüsusiyyətləri və s. məsələlər də tədqiqatın predmetinə daxildir. Mövzu tədqiq edilərkən AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondundan, Azərbaycan ədəbiyyatının XIX əsr mərhələsi ilə bağlı müxtəlif illərdə nəşr edilmiş bədii və elmi əsərlərdən istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Abdulla bəy Asinin həyat və yaradıcılıq yolunu müasir ədəbiyyatşünaslığın qarşıya qoyduğu tələblər baxımından araşdırıb təhlil etmək, şairin əsərlərinin mövzu və forma, ideya-məzmun xüsusiyyətlərini üzə çıxarmaqdır.

Qarşıya qoyulan məqsədin həlli ilə bağlı aşağıdakı elmi vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- XIX əsr Qarabağ ədəbi mühitinin görkəmli nümayəndəsi kimi Abdulla bəy Asinin elmi tərcümeyi-halını dəqiqləşdirib təsvir etmək;

- şairin doğulub ərsəyə gəldiyi ədəbi mühitin özünəməxsus cəhətlərini aydınlaşdırmaq, müəllif-mühit-ədəbi yaradıcılıq əlaqələrini üzə çıxarmaq;
- lirik əsərlərinin mövzu və janr spesifikasını izah etmək;
- Abdulla bəy Asinin lirikasının xalq şeiri və klassik ənənələrlə bağlılığını araşdırıb yeni sənət keyfiyyətlərini üzə çıxarmaq;
- Abdulla bəy Asi yaradıcılığının sənətkarlıq xüsusiyyətlərini yeni meyarlarla dəyərləndirmək.

**Tədqiqat metodları.** Tədqiqat işinin aparılmasında klassik Şərq və Azərbaycan ədəbiyyatşünaslığının elmi qənaət və təcrübələrindən istifadə edilmişdir. Mövzunun sistematik araşdırılması üçün tarixi-filoloji metoddan, eyni zamanda müqayisə, təsnifat, sistemləşdirmə üsullarından istifadə olunmuşdur. Araşdırmada nəzərdən keçirilən problemlərlə bağlı müxtəlif elmi-nəzəri ədəbiyyatlara müraciət edilmiş, irəli sürülən fikirlərin bu ədəbiyyatlara istinadən əsaslandırılmasına cəhd olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Abdulla bəy Asinin lirikasını tədqiq etmək və mövzunu tam şəkildə əhatə etmək üçün aşağıdakı müddəaların müdafiəsi nəzərdə tutulub:

- Abdulla bəy Asinin şəxsiyyəti və yaradıcılığı Qarabağ ədəbi mühitində formalaşıb;
- Abdulla bəy Asinin Azərbaycan, fars və cığatay dillərində yazdığı əsərləri müxtəlif cünglərdə və əlyazmalarda qarışıq şəkildə yer alıb; şairin bəzi əsərləri zaman-zaman katiblər tərəfindən təhrif olunub;
- şairin lirikasının əsas hissəsini məhəbbət və dini mövzularda yazdığı müxtəlif janrlardan ibarət poetik mətnlər təşkil edir;
- Abdulla bəy Asi ilə eyni dövrdə yaşayıb-yaratmış sənətkarların şairin yaradıcılığı barədə fikir və mülahizələri də əhəmiyyətli səciyyə daşıyır;
- Abdulla bəy Asi Azərbaycan, fars və cığatay dillərində yazdığı əsərlərdə yüksək sənətkarlıq nümayiş etdirmişdir;
- şairin yaradıcılığında klassik Şərq və Azərbaycan poeziyasının qüdrətli nümayəndələrinin təsiri duyulur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyini müəyyənləşdirən ilk cəhət problemin qoyuluşudur. Abdulla bəy Asinin həyat və yaradıcılığı bir sıra tədqiqatçılar tərəfindən araşdırılsa da, bu tədqiqatlar şairin ədəbi irsini tam əhatə etməmişdir. Bir şox hallarda şairin həyatı və ədəbi irsi barədə məlum fikir və faktlar təkrarlanmış, onun yaradıcılığı haqqında elmi-nəzəri səviyyədə araşdırmalar aparılmamışdır.

Dissertasiyanın elmi yeniliyi aşağıdakı məsələlərin qoyuluşunda öz əksini tapmışdır:

- XIX əsrin II yarısında yaşayıb-yaratmış Abdulla bəy Asi klassik ədəbi ənənələri öz yaradıcılığında sənətkarlıqla davam etdirmişdir. Görkəmli şairin poetik irsi ilk dəfə bu tədqiqat işində hərtərəfli və sistemli şəkildə tədqiq olunmuşdur.
- Abdulla bəy Asinin yaradıcılıq yolu ənənə və varislik xətti ilə öyrənilmiş, şairin ədəbi irsinin qaynaqlarının özünəxas sənətkarlıq keyfiyyətləri üzə çıxarılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyəti Abdulla bəy Asinin ömür yolunu və yaradıcılığını müasir elmi-ədəbi prinsiplər əsasında araşdırmaq, bu sahədə görülmüş işləri ümumiləşdirməkdən ibarətdir.

Dissertasiya işi milli-ədəbi yaddaşımızın möhkəmlənməsinə yardım edir. Burda qeyd olunmuş faktlardan, əldə edilmiş elmi qənaətlərdən Azərbaycan ədəbiyyatı tarixinin uyğun bölməsinin yazılmasında, ali və orta məktəblər üçün dərslik və dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər. O cümlədən tədqiqat işindən ali məktəb tələbələri, magistrant və doktorantlar da bəhrələnə bilərlər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın nəticələri, əsas yenilikləri müəllifin Azərbaycanda və xarici ölkələrdə Azərbaycan Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda, respublika elmi-nəzəri, elmi praktik konfranslarında çap etdirdiyi məqalə və tezislərdə əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun “Türkdilli

əlyazmaların tədqiqi” şöbəsinin tədqiqat istiqamətlərinə uyğun olaraq hazırlanmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş – 9425 işarə sayı, birinci fəsil üç paraqraf – 43 491 işarə sayı; ikinci fəsil dörd paraqraf – 68 605 işarə sayı; üçüncü fəsil üç paraqraf – 69 058 işarə sayı, nəticə –12 195 işarə sayı və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 202 774 şərti işarədir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Tədqiqat işinin ilk fəsli **“Abdulla bəy Asinin dövrü, mühiti və həyatı”** adlanır.Birinci fəsil üç paraqrafdan ibarətdir. Birinci fəslin ilk paraqtafı **“Abdulla bəy Asinin dövrü və mühiti”** adlanır. Bu hissədə Abdulla bəy Asinin yaşadığı dövrün ədəbi mühitinin ümumi mənzərəsi işıqlandırılır. Məlum olduğu kimi, şairin doğulub ərsəyə gəldiyi dövr və mühit tək iqtisadiyyatın deyil, eyni zamanda digər sahələrin: elmin, incəsənətin, ədəbiyyatın canlanması, irəliləyişi ilə müşahidə olunmuş, bu isə öz mövbəsində həmin dövrdə yazıb yaradan şair və yazıçıların yaradıcılığına da öz təsirini göstərmişdir.

XIX əsrin ikinci yarısında poeziya da özünün çox ziddiyyətli bir dövrünü yaşayırdı. Bu dövrdə poeziya kəmiyyətcə artsa da, keyfiyyətcə öz stabilliyini saxlamaqda davam edirdi. Müasir

mövzular köhnə qəliblərə yerləşdirilir və poeziya ruhən yenilənsə də, forma və quruluş baxımından dəyişmirdi. *"XIX əsrin ikinci yarısında poeziya əsas etibarı ilə dörd qol üzrə hərəkər edirdi ki, bunlardan birincisi yazılı ədəbiyyatda aşıq şeiri:qoşma, təcnis, gəraylı yaradıcılığı, ikincisi realist-satirik cərəyan, üçüncüsü qəzəl şeiri, dördüncüsü isə mühafizəkar mərsiyə və təriqətçı şeirdən ibarət idi".*[1]

Bu dövrdə yazılı ədəbiyyatda aşıq şeiri üslubunda, sadə və anlaşıqlı dildə qoşma, gəraylı, təcnis şəklində yazanların sayı gündən-günə artırdı. Yaradıcılıqlarını bu üslubda davam etdirən şairlər Vaqifin, Zakirin, Nəbatinin poeziyasından bəhrələnərək şux və oynaq şeir nümunələri yaradırdılar. Yaradıcılığında aşıq şeiri tərzinə üstünlük verən şairlər heca vəznində, ahəngdar, ritmik, dili daha asan anlaşılan lirik nümunələr yaratmağa çalışır, ərəb və fars dllərində istifadə olunan qəliz tərkibləri doğma dilimizə çevirərək şeirə daxil edirdilər. Daha çox məhəbbət mövzusunda yazılmış bu əsərlərdə real insan duyğularına üstünlük verilirdi. Şairlər məhəbbət mövzulu əsərlərin əsas obrazları olan aşiq və məşuqəni real həyatdakı kimi təbii boyalarla təsvir etməyə çalışır, onların daxili aləmini, həyəcanlarını qələmə alarkən mücərrəd təqdim üsuluna müraciət etməkdən yayınırdılar.

XIX əsrin 70-90-cı illərindən etibarən poeziyada ictimai motivlər daha çox nəzərə çarpırvə əsasən, Seyid Əzim Şirvaninin, Mirzə İsmayıl Qasirin, Ağa Məhəmmədbağır Xalxalinin yaradıcıqlarında təzahür edirdi. Doğrudur, realizmin ünsürləri bu şairlərin yaradıcılığında köhnə üslubun hökmranlığı şəraitində inkişaf edirdi, fikrin ifadəsində və şeirin formasında əsaslı bir dəyişiklik müşahidə olunmurdu. *"Realizmin poeziya sahəsində zəif inkişafının səbəbləri romantik şeir məclislərinin bu illərdəki qızğın fəaliyyəti, qəzəlçilərin əksəriyyətlə ruhani təhsil görmələri, islam*

[1] Qasımzadə, F.S. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi / F.S.Qasımzadə. – Bakı: Maarif, – 1974, – s.382.

*etiqadından ayrıla bilməmələri, rus və Avropa klassiklərinin əsərləri ilə tanış olmamaları və s. ilə izah oluna bilər".*[2]

Bu dövr ədəbiyyatının bir qolunu da mərsiyə və təriqətçi ədəbiyyat təşkil edirdi. *" Ərəb istilası dövründən üzü bəri xilafətə tabe olan bütün Şərq ölkələrində geniş şəkildə intişar tapan islam dini ideologiyası və bunun bədii ədəbiyyatda təbliği bütün tarix boyu Şərq saraylarında fəaliyyət göstərən saray ədəbiyyatının ideya-estetik prinsiplərini və qayəsini istiqamətləndirdiyi kimi, qədim və orta əsrlərdən başlayaraq XX əsrin əvvəllərinə qədərki Azərbaycan ədəbi mühitinin də dini qolunu istiqamətləndirmiş və formalaşdırmışdı".*[3] Bu tipli dini təəssübkeşliyə demək olar ki, XIX əsr şairlərinin əksəriyyətinin yaradıcılığında da rast gəlmək mümkündür. Bunun ən başlıca səbəbi isə ictimai-tarixi şərait idi. Ölkənin müxtəlif yerlərində mərsiyə ədəbiyyatına marağın artmasının, bu ədəbiyyatın geniş şəkildə yayılmasının əsas səbəbi kimi çarizmin ölkədaxili ziddiyyətlər yaratmağa çalışmasını, bu səbəbdən müsəlmanlar arasında qarşıdurma yaratmaq niyyətilə sünni-şiə məsələsini qabartmasını da qeyd etmək lazımdır. Prof. Zaman Əsgərli XIX əsrin ikinci yarısında mərsiyə ədəbiyatının geniş yayılmasının digər bir səbəbi kimi isə şairlərin tanınmaq arzusu olduğunu qeyd edir: *"Nəhayət, XIX əsrin ikinci yarısı Azərbaycan şeirində mərsiyyənin intişarı, dini motivlərin geniş yayılması, bir də ədəbi gedişatın, mədəni-tarixi prosesin səciyyəsi, sənətkarların özlərinin ədəbi-ictimai mühitdə tanınmaq arzuları ilə bağlı idi...məhərrəmliklə bağlı təziyə və təkyə məclisləri hər ilin müəyyən vaxtlarında nəinki günlərlə, hətta həftələrlə, özü də bir eldə, bir obada yox, bütün Yaxın Şərq ölkələrində davam edirdi.Şübhəsiz, bu cür məclislərdə oxunan şeirlər öz müəllifini daha çox tanıdırdı".*[4]

---

[2] Qasımzadə, F.S. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi [Ali məktəblər üçün dərslik] / F.S.Qasımzadə. – Bakı: Azərbaycan Universiteti nəşriyyatı,–1956, – s.536.

[3] Qədimov, Ə.N. XIX əsr Ordubad ədəbi mühiti [Ali məktəblər üçün dərslik] / Ə.N.Qədimov. – Bakı: ADPU, – 2010, – s.207.

[4] Azərbaycan ədəbiyyatı tarixi: [6 clddə] / Red. hey. sədri B.Ə.Nəbiyev. –Bakı : Elm, – IV cild, –2011, –s.297.

XIX əsrin ikinci yarısında yazılı ədəbiyyatda aşıq şeiri ilə paralel qəzəl janrı  da geniş vüsət alırdı. Ədəbi məclislər dövründə fəaliyyət göstərən,  bir şair kimi püxtələşən yüzlərlə şairin əsas ilham mənbəyi klassik Şərq və Azərbaycan ədəbiyyatı idi. Əsrin əvvəllərində müxtəlif şəhərlərdə şeir həvəskarları və şairlər görkəmli nəzm ustalarının ətrafına toplaşaraq yazdıqları şeir nümunələrini oxuyur və müzakirə edirdilər. Bu cür yığıncaqların sayının günü-gündən artması ayrı-ayrı şəhərlərdə şeir məclislərinin yaranmasını labüd etdi. Azərbaycanın bir çox yerlərində şeirə maraq göstərənlər bu cür dərnəklərdə toplaşır və bu hal müntəzəm şəkil aldıqdan sonra buraya toplaşanlar öz iştirakçılarının tərkibinə və ya yazdıqları şeirlərin ruhuna, ya da toplandıqları yerin adına uyğun olaraq öz dərnəklərini adlandırır, dərnəyin təşkilində xüsusi rolu olan bir nəfər isə dərnəyin ağırlığını öz üzərinə götürürək iştirakçılara müvafiq istiqamət verirdi.

İlk fəslin birinci paraqrafında bu dörd  istiqamətdə fəaliyyət göstərən şairlər və onların hansı səbəbdən bu istiqamətdə öz istedadlarını sınamalarının kökləri araşdırılmış, bəzi qaranlıq məqamlara aydınlıq gətirməyə çalışılmışdır.

Abdulla bəy Asi XIX əsrin ikinci yarısında Qarabağ ədəbi mühitində püxtələşmişdir. Onun qeyri-adi istedadının üzə çıxmasında “Məclisi-fəramuşan” ədəbi məclisinin böyük rolu olmuşdur. Bu yarımfəsildə bir növ ədəbiyyat məktəblərinə çevrilmiş ədəbi məclislərin tarixi araşdırılmış, XIX əsrin ikinci yarısında Azərbaycanın müxtəlif regionlarında təşkil olunmuş ədəbi məclislərin özündən əvvəlki saray məclislərindən fərqli cəhətlərinə aydınlıq gətirilmişdir. Asinin bir şair kimi yetişməsində Azərbaycan və Şərq klassiklərinin yaradıcılığının, eyni zamanda babası Q.Zakirin, qardaşı Azərin xüsusi xidməti olduğu vurğulanmışdır.

Birinci fəslin ikinci paraqrafı **“Abdulla bəy Asinin həyatı”** adlanır. Abdulla Əlibəy oğlu Fuladov XIX əsr Qarabağ ədəbi mühitinin yetişdirdiyi istedadlı şairlərdən biridir. O 1841-ci ildə Şuşa şəhərində anadan olmuş, elə ilk təhsilini də şəhərdə fəaliyyət göstərən mədrəsələrdən birində almışdır. Abdulla bəyin həm təhsilində, həm də tərbiyəsində ana babası olan Qasım bəy Zakirin

böyük xidməti olmuşdur. Bu barədə Əlyazmalar İnstitutunun arxivində mühafizə olunan bir mənbədə (fr-831/7979) yazılır: *“Abdulla bəy Asi Əli bəyin oğlu məşhur Qasım bəy Zakirin nəvəsidir, Şuşada doğulub, türkcə və farsca Şuşada təhsil edərək biliginin artmasına qəvayidi-ədəbiyyəyə bilxassə aşina, elmə aşina babası Zakir, qardaşı Azər tərəfindən diqqət edilmişdir”.*[5] Göründüyü kimi şairin şeirə, sənətə olan meyli də babasından irsən keçmişdir.

Bu hissədə şairin doğum və ölüm tarixi müxtəlif mənbələrdən götürülmüş məlumatlar əsasında müqayisəli şəkildə təhlil olunmuşdur. Tədqiqata daha çox şair haqqında məlumat verən ilkin mənbələr olaraq Mir Möhsün Nəvvabın “Təzkireyi- Nəvvab”, Məhəmmədağa Müctəhidzadənin “Riyazül aşiqin” və Firudin bəy Köçərlinin “Azərbaycan ədəbiyyatı” əsərləri cəlb olunmuşdur. Abdulla bəy Asinin doğum və ölüm tarixi haqqında mənbələrin verdiyi məlumatlar üst-üstə düşür. Mir Möhsün Nəvvabın “Təzkireyi-Nəvvab” əsərində, Firudin bəy Köçərlinin “Azərbaycan ədəbiyyatı ” kitabında və Salman Mümtazın qeydlərində şairin doğum tarixi 1256 (1841)-cı il kimi göstərilmişdir: *“ Abdulla bəy mərhum Qasım bəy Zakirin nəvəsidir. Atasının adı Əli bəydir. Əsli Qarabağ mahalından isə də, Şuşa qalasında təvəllüd tapıbdır 1256-cı tarixdə”.*[6] Vəfatı tarixinə gəldikdə isə Məhəmmədağa Müctəhidzadənin “ Riyazül - aşiqin” təzkirəsində 1291-ci ilin şəban ayı (13 sentyabr 1874) kimi göstərilmişdir: *“Həddi-kəmala yetişəndən badeyi-əcəli nuş qılana kimi ki, ittifaq düşüb hicrətin min iki yüz doxsan birinci ilində, mərifəti sayəsində Qafqaz torpağında olan zül-izzül-ehtiram ürəfalarının əndində şöhrəti-tam əxz edir”.*[7] AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılan Əlabbas Müznibin arxivində şairin həyatı 36 yaşında tərk

---

[5] Əlabbas Müznibin əlyazması. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Elmi fondlar şöbəsi: Fr-831/7979, –v.1.

[6] Köçərli, F.Q. Azərbaycan ədəbiyyatı, [2 cilddə] / F.Q.Köçərli. – Bakı:Avrasiya Press, – 2005, – s.111.

[7] Müctəhidzadə, M.S. Riyazül-aşiqin / M.S.Müctəhidzadə. – Bakı: Azərbaycan, – 1995, – s.161.

etdiyi barədə qeyd mövcuddur: *“36 yaşında tərki-həyat edən gənc Asinin müqəddər bir şair olmasına şeiri sayəsində qazandığı şöhrət kifayət edər”.*[8]

Firudin bəy Köçərli şairin cavan çağlarında, çiçəklənən bir zamanda dünyasını dəyişməsini böyük təəssüf hissi ilə qeyd edir və bu hadisənin müasirləri olan şairlər arasında necə hüznlə qarşılanmasını bu cür ifadə edir: *“1291-ci tarixdə şəbanın qürrəsində Abdulla bəy ömrünün hənuz cavan sinnidə Şuşa şəhərində Allah rəhmətinə vasil olubdur və müasiri olan şüəravü üdəbavü zürəfaları böyük bir yasa mübtəla edibdir”.*[9]

Birinci fəslin üçüncü paraqrafı **"Müasirləri Abdulla bəy Asi"** haqqında adlanır. Abdulla bəy Asi beş ilə yaxın Şuşada fəaliyyət göstərən “Məclisi-fəramuşan”ın fəal üzvlərindən olmuş, bu müddət ərzində özünün dərin mənalı şeirlərinə, yazıb-yaratmaq bacarığına görə müasirləri arasında böyük hörmət və nüfuz qazana bilmişdir. Məclisə başçılıq edən Mir Möhsün Nəvvabdan sonra Asi ən məhsuldar şair hesab olunurdu. Bir çox elmi və ədəbi mübahisələrdə məclis üzvləri onun fikri ilə tam razılaşırdılar. Xüsusilə də Şirvan şairləri Asini bir sənətkar kimi yüksək qiymətləndirir və yazılan əsərlərdə hansı qüsurun olduğunu, kimin daha üstün yazdığını müəyyənləşdirmək üçün Abdulla bəyə məktubla müraciət edirdilər. Firudin bəy Köçərli Şirvan şairlərinin Abdulla bəyə müraciəti haqqında yazır: *“ Ona binaən haman qəzəlləri təmamən yazıb, hüzuri-bahirün-nurlərinizə pişnəhad etdik. Ümid ki, əshabi-firdovsnişan, xüsusən ol səramədi-dövran və qibleyi ürfan Mövlanə Abdulla bəy Asi və Novrəsi-əvvəl və təmami əhli-məclis ol qəzəllərin bir- birindən əla və pabəst olmağın tərtibən imtiyaz edib, elam buyuralar ki, ta bu qəzəllərin hansı hansından əla olduğu məlum və müşəxxəs ola. Məsələn, bu qəzəl əvvəlincidir, bu ikincidir, bu üçüncüdür ilaxır”.*[10]

---

[8] Əlabbas Müznibin əlyazması. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Elmi fondlar şöbəsi: Fr-831/7979, –v.1.

[9] Köçərli, F.Q. Azərbaycan ədəbiyyatı, [2 cilddə] / F.Q.Köçərli. – Bakı:Avrasiya Press, – 2005, – s.128.

[10] Yenə orada, – s.112.

Abdulla bəy ilə yaxın dost münasibətində olan, onun yaradıcılığına yüksək qiymət verən Seyid Əzim Şirvani özünü Asi ilə müqayisədə kiçik "qulam" adlandırır:

*Nə Asi, ol ki, dəri-izzətində Seyyidi-zar,*
*Qulamı olmaq ilə sahibixtiyar olacaq...*[11]

Asi yaradıcılığını tədqiq edən alimlər onun irsini yüksək qiymətləndirmiş və yaradıcılığına böyük rəğbətlə yanaşmışlar. Müasirlərinin Asi qəzəllərinə nəzirə yazdıqlarını vurğulayan tədqiqatçı Mustafa Mustafayev bu haqda yazır: *"Asi klassik poetikaya mükəmməl yiyələmiş, əruzu dərindən mənimsəmiş şair idi. Təsadüfi deyil ki, müasirlərindən çoxu onun qəzəllərini tənzir etmişlər".*[12]

AMEA Əlyazmalar İnstitutunda saxlanılan Əlabbas Müznibə məxsus bir fraqmentdə Abdulla bəyin yaşayıb yaratdığı dövrdə müasirləri arasında müvəffəqiyyət əldə edən şairlərdən biri olması barədə qeyd vardır: *" Asi klassik ədəbiyyatın ən çox inkişaf etdiyi, Şuşa xanlıq dövrünün pozğunluğa yüz tutduğu, burjuazi iqtisadın Bakıda yüksəldiyi, şairlər cəmiyyətinin ədəbiyyat alayları yaratdığı zamanda yüksəlməyə başlamış, müvəffəqli qəzəllər yazmışdır".*[13]

Bu yarımfəsildə isə müasirlərinin şair haqqında fikirləri, müxtəlif ədəbi məclislərlə Asinin poetik məktublaşmaları, şairin nə üçün məhz "Asi" təxəllüsünə müraciət etməsi ilə bağlı ədəbiyyatşünaslıqda irəli sürülən mülahizələr öz əksini tapmışdır.

Dissertasiya işinin ikinci fəsli **"Abdulla bəy Asinin poetik irsi"** adlanır və 4 paraqrafdan ibarətdir. Şairin irisinin ilkin mənbələrdə necə əks olunduğunu araşdırmağa xidmət edən ikinci fəslin ilk paraqrafı **"Abdulla bəy Asinin poetik irsi ilkin mənbələrdə"** adlanır. İlkin mənbə kimi Mir Möhsün Nəvvabın

---

[11] Köçərli, F.Q. Azərbaycan ədəbiyyatı, [2 cilddə] / F.Q.Köçərli. – Bakı:Avrasiya Press, – 2005, – s.112.

[12] Mustafayev, M.M. XIX əsr Azərbaycan şeirində lirika / M.M.Mustafayev. – Bakı: APİ, –1998, – s.35.

[13] Əlabbas Müznibin əlyazması. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Elmi fondlar şöbəsi: Fr-831/7979, –v.1.

"Təzkireyi-Nəvvab", Məhəmmədağa Müctəhidzadənin "Riyazül aşiqin" və Firudin bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" əsərlərindən, həmçinin Salman Mümtazın və Müznibin Əlyazmalar İnstitutunda qorunub saxlanan arxiv materiallarından, Hüseyin Əfəndi Qayıbovun "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı topludan, müxtəlif cünglərdən istifadə olunmuş, bəzi faktlar araşdırılmış, müqayisələr aparılmışdır. Yuxarıda sadaladığımız mənbələr şair Abdulla bəy Asi haqqında qısa da olsa, məlumat verən ilkin mənbələrdir. Qeyd etmək lazımdır ki, XIX əsrin ikinci yarısı fəaliyyət göstərən ədəbi məclislərin üzvlərinin həyatı, irsi ilə maraqlananlar, mütəxəssislər və ədəbiyyatşünaslar üçün bu mənbələrin verə biləcəyi məlumat olduqca önəmlidir. Məhz bu mənbələrin sayəsində haqqında bəhs etdiyimiz dövrlərdə yazıb-yaradan şairlərimizin qiymətli irsi günümüzə qədər gəlib çıxmışdır.

Adları qeyd olunmuş mənbələr Abdulla bəy Asinin həyatı və yaradıcılığı haqqında müəyyən təsəvvür yaratsa da, burada əksini tapan məlumatlar sistemli deyil, pərakəndədir. Yarımfəslin sonunda isə Raqub Kərimovun şairin həyatının və bədii irsinin araşdırılmasında xidmətindən bəhs edilmişdir.

Yaradıcılığının böyük bir hissəsini məhəbbət mövzusunda yazdığı qəzəllər təşkil edən Asi bu mövzuda yazdığı şeirlərdə Füzulinin davamçısı kimi çıxış etmiş, incə zövq nümayiş etdirməyə müvəffəq olmuşdur. Şairin məhəbbət lirikasının tədqiq olunduğu ikinci fəslin ikinci paraqrafı **"Abdulla bəy Asinin poetik irsində real məhəbbətin tərənnümü"** adlanır. XIX əsrin ikinci yarısında ədəbiyyatda başlıca yeri poeziya və onun ayrılmaz hissəsi, aparıcı qolu olan qəzəl janrı tuturdu. Forma yığcamlığı,bəhr və təfilə zənginliyi baxımından qəzəlin imkanları daha geniş olduğundan ənənəvi formalar içərisində qəzələ həmişə üstünlük verilmişdir. Bu dövrdə fəaliyyət göstərən məclis nümayəndələrinin yaradıcılığına nəzər salsaq görərik ki, qəzəlin forma və quruluşunda heç bir dəyişiklik yoxdur, yeganə dəyişiklik onun məzmunundadır. Doğrudur, klassik ədəbiyyat nümunələrində olduğu kimi burada da şairlər gözəlin xarici görünüşündən danışır, klassik poeziyanın mövzusu olan gül, bülbül, məşuq və məşuqədən bol-bol söhbət

açırdılar. Lakin ilk baxışda köhnənin təkrarı kimi görünən bu şeirlər əslində realist mövqedən çıxışları baxımından bu dövrün ədəbiyyatına, onun məzmununa mütərəqqi ideya gətirə bilmişdi.

Yaradıcılığının bir hissəsini məhəbbət mövzusunda yazdığı qəzəllər təşkil edən bu dövr şairlərindən biri də Abdulla bəy Asi idi. Şair böyük Füzulinin davamçısı kimi çıxış edərək sözün həqiqi mənasında bir-birindən gözəl və mənalı qəzəllər yazmışdır. Şairin yazdığı əsərlər həm geniş oxucu kütləsi tərəfindən, həm də müasirləri olan şairlər, yəni şeirdən, onun forma və quruluşundan xəbəri olan insanlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Asi qəzəllərinin demək olar ki, hamısı ənənəvi məhəbbət mövzusuna həsr olunmuşdur. O, qəzəllərində dərin insani hissləri, eşq və sevgi duyğularını romantik aləmdən təcrid edərək real həyata, yaşadığı mühitə gətirməyə çalışmışdır. Asi də babası Qasım bəy Zakir kimi real məhəbbəti, dünyəviliyi təbliğ edirdi.

Tədqiqat işinin ikinci fəslinin üçüncü paraqrafı **"Abdulla bəy Asinin dini şeirləri"** adlanır. Asinin yaradıcılığı ilə maraqlanan, onun şeirlərini oxuyan hər bir şəxs şairin İslam dininə, onun qayda və qanunlarına, peyğəmbərlər, mələklər haqqında "Qurani - Kərim"də qeyd olunmuş ayələrə nə qədər yaxından bələd olduğunu əminliklə söyləyə bilər. Şair yazdığı bütün dini şeirlərində, mərsiyə və növhələrində İslam şiə məzhəbinin nümayəndəsi kimi çıxış etmişdir.

Həzrəti Əli, onun ailə üzvləri, davamçıları, iştirak etdiyi döyüşlər və s. haqqında ətraflı məlumata sahib olan Abdulla bəy Asi dini şeirlərinin əksəriyyətində onun tərifinə böyük yer vermiş, onu "həqiqət elminin xəzinəsinin açarı", "ərəblərin əmiri", "cahanın seçilmişi" adlandırmışdır.

XIX əsrdə İslamı kökündən laxladan,onu daxildən parçalayan sünni-şiə problemi hələ də öz aktuallığını saxlayırdı. Təbii ki, bu mühitdə böyüyən, tərbiyə alan insanlar da bu qarşıdurmaya biganə qala bilməzdi. Abdulla bəy Asi də Şuşa mühitində böyüyüb tərbiyə almış, uşaqlıqdan Şuşada hər il Aşura günü ilə əlaqədar keçirilən mərasimlərin, bu zaman

müxtəlif dini dünyagörüşü olan insanların qarşıdurmasının, hətta bu toqquşmalar zamanı tökülən qanların canlı şahidi olmuş, təbii ki, bütün sadalananlar onun dini düşüncə və dünyagörüşünə təsirsiz ötüşməmişdi. Bu baxımdan şairin dini səpgidə yazdığı şeirlərdə bir şiə tərəfdarının, Kərbəlanın susuz çöllərində qətlə yetirilmiş peyğəmbər davamçılarının təəssübkeşi kimi çıxış etməsini təbii hal hesab etmək olar.

II fəslin dördüncü paraqrafı **“Abdulla bəy Asinin həcvləri”** adlanır .Yaradıcılığında həcvə müraciət edən Qarabağ şairlərindən biri də Qasım bəyin nəvəsi Abdulla bəy Asi olmuşdur. Abdulla bəyin ədəbiyyat tariximizdə iki həcvi məlum olsa da, şairin əlyazmaları qorunub saxlanılan AMEA Əlyazmalar İnstitutunda onun yalnız Kərim ağa adlı şəxsə ünvanladığı həcv mövcuddur (B-3352/4987). Şairin böyük səs-sədaya səbəb olan digər bir həcvinin–Xan qızı Natəvana ünvanladığı həcvin orijinalı isə günümüzə gəlib çatmamışdır. Əldə olan variant kimi Şamaxıda yazılmış cüngdə yer alan Asinin Xan qızını həcvindən və Mirzə Mehdi Nacinin ona cavab məktubundan (həcv) istifadə etmişik. Burada Asinin həcvi 53 beyt həcmində, Şuşada İsgəndər bəy Rüstəmbəyovun tərtib etdiyi digər bir cüngdə isə 59 beyt həcmində verilmiş, bəzi beytlərdə fərqlilik müşahidə olunmuşdur. Belə ki, cüng müəllifi Xan qızının yaxınları: anası, qızı, yaxın qohum-əqrəbası haqqında olan nalayiq beytləri cüngə daxil etməmiş, Xan qızına olan rəğbətindən həcvin müəyyən hissələrini ixtisar etmək qərarına gəlmişdir. Tədqiqat prosesində XIX əsr Şuşa ədəbi mühitinin dəyərli tədqiqatçısı Raqub Kərimovun müxtəlif nüsxələr əsasında bərpa etdiyi həcvi əsas variant kimi götürülmüşdür.

Dissertasiyanın üçüncü fəsli **“Abdulla bəy Asi yaradıcılığının sənətkarlıq xüsusiyyətləri”** adlanır. Üç paraqrafdan ibarət olan bu fəsildə şairin poeziyasının forma və məzmun xüsusiyyətləri, eyni zamanda ədəbi dilin əlvanlığını, məna çalarlarının zənginliyini əks etdirmək niyyətilə Abdulla bəyin istifadə etdiyi bədii təsvir və ifadə vasitələri, ümumilikdə şairin sənətkarlıq qüdrəti diqqətə cəlb edilmişdir.

Üçüncü fəslin ilk paraqrafı **"Abdulla bəy Asi poeziyasının forma və janr xüsusiyyətləri"** adlanır. Asi şeirlərini iki qrupa ayırmaq olar. Bunlardan birincisi şairin klassik şeir formalarında yazdığı qəzəl, müxəmməs, tərcibənd və sairə , digəri isə aşıq şeiri tərzində yazılmış təcnisləridir. Şairin heca vəznində yazdığı şeirlərin sayca az olması bir qədər şübhə doğurur. Çünki əlimizdə Abdulla bəyin cəmi üç təcnisi vardır. Heca vəzninin ən geniş yayılmış forması olan qoşma janrında isə şairin heç bir şeiri əlimizə gəlib çatmayıb. Şairin qoşma janrına müraciət etməməsi bir qədər inandırıcı deyil, hər halda yazılan bəzi qism əsərlər kimi onlar da hansı səbəblərdənsə itmiş və günümüzə qədər gəlib çatmamışdır.

XIX əsrin II yarısında fəaliyyət göstərən ədəbi məclislərdə təkcə doğma dilimizdə deyil, eyni zamanda fars dilində də qəzəllər yazılır, məclis nümayəndələri bir-birini bu dildə yazdıqları nümunələrlə də imtahan edirdilər. Farsca mükəmməl qəzəl yaradan məclis şairləri içərisində Abdulla bəy xüsusi seçilirdi. Onun fars dilində yazdığı qəzəllərdən başqa, cığatay dilində yazdığı qəzəlləri də günümüzə qədər gəlib çıxmışdır.

Üçüncü fəslin ikinci paraqrafı **"Abdulla bəy Asi poeziyasında bədii ifadə vasitələri"** adlanır**.** Abdulla bəy Asi yaradıcılığında Azərbaycan ədəbi dilinin kamilliyini, əlvanlığını, məna çalarlarının zənginliyini əks etdirmək niyyəti ilə bədii təsvir və ifadə vasitələrinin müxtəlif növlərindən uğurla istifadə etmiş, oxucusunun zövqünü oxşaya biləcək, yüksək səviyyəli bədii nümunələr yaratmağa müvəffəq olmuşdur. XIX əsrdə bədii yaradıcılıqla məşğul olan şair üçün yalnız ümumxalq dilinə yaxşı bələd olmaq kifayət etmir, eyni zamanda klassik Şərq poetikasının qayda və qanunlarından da xəbərdar olmaq tələb olunurdu. Şərq poetikasına yaxından bələd olan Abdulla bəy öz yaradıcılığında Azərbaycan dilinin zəngin lüğəti ilə bərabər, klassik ədəbiyyatda istifadə olunan poetik fiqurlardan da yerli-yerində istifadə etməyə çalışmış, müəyyən dərəcədə öz istəyinə nail olmuşdur. Yüksək səviyyəli poetik nümunə yaratmağı qarşısına məqsəd qoyan şair üçün fikrin obrazlı şəkildə ifadə olunması vacib şərtdir, əks halda ideya və

məzmun cəhətdən aktual olan bir əsər belə bədii sənət nümunəsi kimi qiymətləndirilə bilməz. *"Dildən səmərəli istifadə və onu obrazlı ifadəyə çevirmək bacarığı təkcə yaradıcının istedadı, istəyi, arzusu ilə deyil, həm də onun dünyagörüşü, ictimai-estetik məramı, xalq dilinə olan dərin məhəbbəti, milli qeyrəti, zövqü və bütünlüklə sənətkarlıq qüdrətilə bağlı bir məsələdir".*[14]

Asi yaradıcılığına diqətlə nəzər yetirsək, şairin gənc olduğuna baxmayaraq klassik ədəbiyyatımızla yanaşı Şərq şeirinin xüsusiyyətlərini də dərindən mənimsədiyinin, bütün bu xüsusiyyətləri öz bədii irsinə məharətlə tətbiq etdiyinin şahidi olarıq. Şair oxucusunun qəlbini fəth edə bilmək üçün bədii təsvir və ifadə vasitələrindən, poetik fiqurlardan yerli-yerində istifadə etmiş, sadə insanların da başa düşəcəyi bir dildə yazmağa çalışmışdır.

Üçüncü fəslin son paraqrafı **"Klassik Şərq və Azərbaycan poeziyasının Abdulla bəy Asi yaradıcılığına təsiri"** adlanır. Klassik Şərq lirikasının ənənələrini öz şeirlərində yaşadan məclis şairlərindən biri də Abdulla bəy Asi olmuşdur. Şairin lirikasını araşdırdıqda şeirlərində dahi Azərbaycan şairləri Nizaminin, Füzulinin, Şərqin böyük şeir ustadları olan Sədi Şirazinin, Əlişir Nəvainin təsiri açıq aydın duyulur. Bəzi hallarda bu ruhda yazılan şeir nümunələrini yanlış olaraq "ustadı təqlid" kimi qiymətləndirənlər də olmuşdur. Lakin klassik ədəbi ənənələrə rəğbət bu dövr şairlərinin yaradıcılığında təqlid və yamsılama şəklində təzahür etmir, əksinə özünəməxsus şəkildə ortaya çıxırdı. Qarabağ ədəbi mühitinin görkəmli nümayəndəsi Abdulla bəy Asi də ustadlarından yararlanaraq klassik ədəbi ənənələri öz şeirlərinə daxil etmişdir. Şair lirikasında Nizami və Füzuli ədəbi məktəbinin layiqli davamçısı kimi çıxış edir:

*Mənə xoşdur qəmim, canan, ona gəl dərman axtarma!*[15]
*Sual etmə "Nədir dərdin?" əcəb bimar saxlarsan?...*

---

[14] Əlimirzəyev, X.Ə. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları [tədris vəsaiti] / X.Ə.Əlimirzəyev. – Bakı: Nurlan, –2008, – s.206.

[15] Gəncəvi, N.M. Lirika / N.M.Gəncəvi. –Bakı: Lider nəşriyyatı, –2004, – s.22.

*Eşq dərdilə xoşam, əl çək əlacımdan təbib,*
*Qılma dərman kim, həlakim zəhri-dərmandadır.* [16]

*Qəmü fəraqə dəva yox təbibdən, Asi,*
*Budur əlac, gedim padşahimə dadə.*[17]

Asinin Şərqin böyük ustadları Nizami, Füzuli,Nəvai ədəbi ənənələrindən faydalanması da təsadüfi seçim deyildi. *"Çünki istər Nəvainin, istərsə də Nizami və Füzulinin fəlsəfi-lirik və ictimai-estetik fikir dünyasının mərkəzində milli türk əxlaqı, türk təfəkkürü və türk mənəviyyatı dayanırdı".*[18]

Araşdırmanın nəticəsi olaraq aşağıdakıları qeyd etmək olar:

- XIX əsrdə daxili vəziyyətinin qeyri-stabil olması ilə seçilən Azərbaycan üçün mərkəzləşdirilmiş dövlətin yaradılmasına daxili çəkişmələrlə bərabər xarici təsirlər də mane olurdu. Bu dövrdə baş vermiş hadisələr Azərbaycan xalqının ictimai-siyasi həyatına bir sıra ziddiyyətlərlə daxil olsa da, ədəbi inkişafa göstərdiyi müsbət təsir də danılmazdır. Ölkə həyatında baş vermiş mühüm tarixi hadisələr ("Gülüstan" və "Türkmənçay" sülh müqavilələri) uzun müddət çəkişmələrə məruz qalmış Azərbaycan üçün həm iqtisadi, həm də mədəni inkişafa təkan oldu.
- Dövrün ikinci yarısında mövcud ədəbi məclis üzvlərinin bir-biri ilə şeirləşməsi, nəzirə yazmaq ənənəsi, klassik irsə sıx bağlılıq bəzən epiqonçuluğa gətirib çıxarsa da, poeziya demokratik və yenilikçi ideyalarla, humanist və xəlqi düşüncələrlə zənginləşir, çox yayılan qəzəl janrının bədii quruluşu orijinal və rəngarəng vasitələrlə yeni poetik keyfiyyətlər qazanırdı. Ənənəvi obrazlar, süjet və motivlər köhnə təfəkkür tərzini yox, daha çox dünyəvi düşüncələri, real insani hissləri ifadə edirdi. Bu cür ifadə üsulları poetik üslubun sadəliyini, yeni yaradıcılıq axtarışlarının

---

[16] Füzuli, M.S.Əsərləri.[6 cilddə] /M.S.Füzuli. –Bakı :Şərq-Qərb, –c.1.–2005, – s.125.

[17] Kərimov, R.Ş. Abdulla bəy Asinin həyatı və yaradıcılığı / R.Ş.Kərimov. – Bakı: Nurlan, – 2009, – s.82.

[18] Qədimov Ə. XIX əsr Ordubad ədəbi mühiti:/ filologiya elmlər doktoru dis./ –Bakı, 2006, – s.157.

davamlılığını, bədii mətnin gözəlliyini və məzmun təzəliyini təmin edirdi. Klassik ədəbiyyatda yer alan lirik parçalardan fərqli olaraq bu dövrdə yazılan məhəbbət mövzulu lirik nümunələrdə lirik "mən"in daxili aləmi, mənəvi yaşantıları real həyatda olduğu kimi təsvir edilmişdir.

- XIX əsr ümumilikdə Azərbaycanda poeziyanın inkişafı üçün məhsuldar bir dövr hesab edilə bilər. Əsrin əvvəllərində poeziya həvəskarlarının ədəbi nümunələrin müzakirəsi məqsədilə toplaşdığı yığıncaqlar bir müddət sonra müxtəlif şəhərlərdə ədəbi məclislərin formalaşması üçün zəmin yaratdı. Ümumiyyətlə, ədəbi məclislərin təşkili XIX əsrdən daha əvvələ təsadüf edir. Orta əsrlərdə saraylarda təşkil edilmiş ədəbi məclislər, onların mahiyyəti, iştirakçıları barədə Həmid Araslının, Nəsrəddin Qarayevin tədqiqatlarından məlumat almaq olar. Lakin orta əsr ədəbi məclislərindən fərqli olaraq, XIX əsrin ikinci yarısında müxtəlif regionlarda təşkil olunmuş ədəbi məclislərdə Azərbaycan dilində yazmaq ənənəsi qüvvətlənir, məclis ədəbiyyatının nümayəndələri əsərlərinin böyük qismini doğma dildə yazır, mövzu seçimində tam müstəqillik nümayiş etdirirdilər. Bu cəhəti Asinin poeziyasında da aydın sezmək olar. Onlar hansı dildə yazacaqlarını seçməklə bərabər, istədikləri mövzuya müraciət etməkdə də tam müstəqil idilər.

- XIX əsrin ikinci yarısında Şuşada fəaliyyət göstərən "Məclisi-fəramuşan" ədəbi məclisi ətrafına dövrünün istedadlı şairlərini toplaya bilmiş, bu şairlərin timsalında sonrakı ədəbiyyatın inkişafı üçün münbit şərait yaratmışdı. Məclisin başçısı Mir Möhsün Nəvvab açıq görüşlü bir ziyalı kimi, Qərb mədəniyyəti ilə də maraqlanır, bir sıra mədəni mərkəzlərlə əlaqə saxlayırdı. O, "Əkinçi", "Ziya", "Kəşkül" və s. qəzetləri, Hindistandan "Həblül-mətin" məcmuəsini alır, məclis üzvləri bu mətbuat orqanları vasitəsi ilə dünya hadisələrindən, elm və mədəniyyət yeniliklərindən xəbər tuturdular.

- Bu ədəbi məclislər bir növ ədəbiyyat məktəbləri vəzifəsini yerinə yetirmiş, məclisdə iştirak edən gənc və təcrübəsiz şairlərin bədii əsərləri ustad sənətkarlar tərəfindən qiymətləndirilmiş, onların naqis və qüsurlu tərəfləri aşkara çıxarılaraq düzəlişlər aparılmasına

tövsiyələr edilmişdir. Bu dövrdə fəaliyyət göstərən ədəbi məclis iştirakçılarının əksəriyyəti lirik əsərlərində Füzuli və Vaqif ədəbi məktəbinin ardıcılları kimi çıxış etmişlər. Klassik üslubda yazılmış əsərlərində dahi Füzulinin davamçıları kimi çıxış edən məclis üzvləri eyni zamanda ədəbiyyata yeni məzmun və forma gətirmiş, mövcud ictimai quruluşun nöqsanlı tərəflərini yeri gəldikcə öz əsərlərində əks etdirməyə çalışmışlar. Digər tərəfdən bu məclislərdə qızğın poetik və elmi müzakirələr aparılmaqla yanaşı, onların arasında ədəbi əlaqələr də güclənirdi. Bu da həmin məclislərin fəaliyyətini mövcud olduqları regionlarla məhdudlaşdırmır, onların qarşılıqlı əhatə dairəsini daha da genişləndirirdi.

- "Məclisi-fəramuşan" ədəbi məclisinin M.M.Nəvvabdan sonra ədəbi nüfuzu ilə geniş şöhrət qazanan Abdulla bəy Asi məclisin mövcudluğunun cəmi beş ilində fəaliyyət göstərsə də, təkcə Şuşada deyil, Azərbaycanın bir çox şəhərlərində şairlərin, elm və sənət adamlarının rəğbətini qazanmış, məhsuldar yaradıcılığı ilə müasirləri tərəfindən yüksək qiymətləndirilmişdir. Şairin ədəbi irsi tam şəkildə günümüzə çatmamış, az bir hissəsi mühafizə oluna bilmişdir. Şairin şeirlərindən onun bir neçə dilə yiyələndiyinin, bu dillərdə sərbəst şəkildə nəzm nümunələri yaratdığının şahidi oluruq. Abdulla bəy ərəb, fars, türk, rus dilləri ilə yanaşı cığatay dilinə də yiyələnmiş, Əlişir Nəvainin əsərlərini sevə-sevə oxumuş, onun təsiri ilə çığatay dilində 3 qəzəl yaratmışdır. Müasirləri onun sənətinə hüsn-rəğbət bəsləmiş, şəxsiyyətinə və yaradıcılığına xalq arasında yüksək sevgi olduğunu xüsusi vurğulamış, şairin şeirlərini müasirləri ilə müqayisədə daha aydın və daha mənalı hesab etmişlər

- Abdulla bəy Asi haqqında ilkin mənbələrdə verilən məlumatlar demək olar ki, eyni səciyyə daşıyır. Şairin doğum tarixi haqqında məlumat verən Mir Möhsün Nəvvab və Firudin bəy Köçərli şairin doğum tarixini 1256 (1841)-ci il kimi göstərmişdir. Asinin ölüm tarixinə gəldikdə isə bu faktı Mir Möhsün Nəvvab, Məhəmədağa Müctəhidzadə və Firudin bəy Köçərli 1291-cil il kimi qeyd etmişlər. Adları çəkilən müəlliflərin verdiyi məlumata görə şair 35 il ömür sürmüşdür. XIX əsrdə fəaliyyət göstərən ədəbi məclis nümayəndələrinin həyatı və yaradıcılığını araşdıran Nəsrəddin

Qarayev "Poetik məclislər" adlı kitabında şairin 34 il ömür sürdüyünü göstərmişdir. Bu qeydə Əlabbas Müznibin arxivində qorunan "Abdulla bəy Asi"adlı qovluqda qorunan əlyazmalarda da rast gəlmək mümkündür.

- Abdulla bəy Asi ədəbi irsinin mühüm hissəsi onun AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda B-236/10536, B-3348/22369, B-1421/6048, B-3352/4987 şifrələri ilə mühafizə olunan cünglərdə, eyni zamanda Müznibin (Fr-831/7979) və Salman Mümtazın arxiv materiallarında günümüzə qədər gəlib çıxmışdır. Göstərilən qaynaqlardan əlavə Asinin heç bir mənbədə adı çəkilməyən dini şeirlərindən biri Hüseyn Əfəndi Qayıbovun "Azərbaycanda məhşur olan şüəranın əşarına məcmuə" adlı kitabında yer almışdır.

- Abdulla bəy Asi lirikasından müəyyən örnəklər son zamanlaradək müxtəlif şeir toplularında nəşr olunmuşdur. Şairin yaradıcılığının çox cüzi hissəsi Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" , Məhəmmədağa Müctəhidzadənin "Riyazül-aşiqin", Firudin bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı", Hüseyn Əfəndi Qayıbovun "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" kitabında yer almışdır. XX əsrin əvvəllərində şairin şeirlərini toplayaraq nəşr etdirməyə cəhd edən Salman Mümtaz buna müvəffəq ola bilməmişdir. Qarabağ ədəbi mühitinin ardıcıl tədqiqatçılarından olan Raqub Kərimov ilk dəfə şairin ədəbi irsini müxtəlif mənbələrdən bir yerə cəmləyərək 2009-cu ildə "Abdulla bəy Asinin həyat və yaradıcılığı" adı ilə nəşr etdirmişdir. Bu kitabda prof. Raqub Kərimov Asinin Azərbaycan dilində yazdığı şeirlərlə bərabər, farsca şeirlərinin tərcüməsini vermiş, şairin həyatı və yaradıcılığı haqqında 66 səhifədən ibarət elmi bir oçerk də yazmışdır. Tədqiqatçı eyni zamanda Asinin avtoqrafı, azərbaycan və farsca şeirlərinin fotofaksimelisini də buraya daxil etmişdir.

- Araşdırmalar göstərdi ki, Abdulla bəy Asi yaradıcılığında klassik poeziyamızın qüdrətli sənətkarları Nizami Gəncəvi, Məhəmməd Füzuli ilə yanaşı, özbək ədəbiyyatının görkəmli nümayəndəsi Əlişir Nəvainin də təsiri duyulur. Şair klassik üslubda yazdığı lirik nümunələrdə Nizami və Füzuli ədəbi məktəbinin

davamçısı kimi çıxış etmiş, bir çox müasirləri kimi bu dahi sənətkarlardan bəhrələnməyi özünə fəxr bilmişdir. Şairin üçü qəzəl, biri mənzumə olmaqla cığatay dilində yazdığı əsərləri Əlişir Nəvainin təsiri ilə yazılmış yüksək sənətkarlıq nümunəsi hesab edilə bilər. Şairin cığatay dilində yazdığı əsərlərin azlığı bizə bu nümunələrin tam şəkildə əlimizə çatmadığı qənaətinə gəlməyə əsas verir.

- Abdulla bəy Asi yaradıcılığında üç dildə: Azərbaycan, fars və cığatay dillərində yazdığı qəzəl janrı mühüm yer tutur. Şairin qəzəllərinin əsas mövzusu məhəbbət, bu mövzunun mərkəzindəki obraz isə real Azərbaycan gözəlidir. Klassik ədəbiyyatın ənənələrini öz əsərində yaşadan bəzi müəlliflərdən fərqli olaraq Abdulla bəy Asi yaradıcılığında təsəvvüf izləri demək olar ki, yox dərəcəsindədir. Aşiqanə qəzəllərində şairin lirik “mən”i həyata real gözlə baxan, onun insana bəxş edə biləcəyi nemətlərdən zövq almağa çalışan aşiq obrazı kimi çıxış edir.

- Asi yaradıcılığında qəzəl ilə yanaşı müxəmməs, tərcibənd, təcnis, bəhri-təvil, rübai janrında yazdığı şeirlər də müəyyən yer tutur. Kəmiyyətcə elə də çox olmayan bu şeirlər şairin müxtəlif janrlarda şeir yazmaq bacarığının göstəricisi kimi təzahür edir. Şairin ədəbi irsində dini şeirləri, mərsiyə və növhələri də mühüm yer tutur. Şair bu mövzu ilə bağlı yazdığı şeirlərində şiə təriqətinin davamçısı kimi çıxış etmiş, Məhəmməd peyğəmbərə (s), imam Əliyə (ə), Kərbəla hadisələrində ailə üzvləri, yaxın silahdaşları ilə birgə qətlə yetirilmiş İmam Hüseynə mərsiyə və növhələr həsr etmişdir. Bu şeirlərdə şair “Quran” qissələrindən, əfsanə və rəvayətlərdən özünəməxsus şəkildə bəhrələnmiş, özünün dini təəssübkeşliyini rəngarəng poetik vasitə və üsullarla ifadə etmişdir.

- Yalnız Qarabağ ədəbi mühitində deyil, onun hüdudlarından kənarda geniş əks-səda doğuran həcvlər də Asinin yaradıcılığında özünəməxsus yer tutur. Onun “Beşno, ey dil, süxənəm töhfeyi-hər əncümənəst” misrası ilə başlayan həcvində Xan qızı Natəvan kəskin satirik vasitələr və bir sıra hallarda nalayiq ifadələrlə tənqid olunur. Lakin bu həcv şairin müasirləri tərəfindən etirazla qarşılanmış, Asi qınaq obyektinə çevrilmişdi. Kərim ağanı

həcvində şair kimliyi bizə məlum olmayan bu şəxsi "bikəmal", "misli-həmar", "sən xərsən" və sair kimi ifadələrlə tənqid və ifşa etmiş, onun layiq olmadığı hökumət vəzifəsində çalışmasını, əhalinin ona olan narazılığı satirik boyalarla açıb göstərmişdir.

- Abdulla bəy Asi lirikası özünün sənətkarlıq xüsusiyyətləri ilə də nəzəri cəlb edir. Doğma dilimizdə yazdığı qəzəllərdə bəzi ərəb və fars mənşəli sözlərdən istifadə etməsinə baxmayaraq, ümumilikdə şairin dili sadə və aydındır. Onun yaradıcılığı Azərbaycan ədəbi dilinin əlvanlığını və məna çalarının poetik gözəlliklərini əks etdirən bədii təsvir və ifadə vasitələri ilə zəngindir. Bu zəngin poetik xüsusiyyətlər orijinal səciyyəsi ilə Asinin fərdi yaradıcılıq üslubunun göstəricisi kimi təzahür edir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin respublikada və xaricdə dərc olunmuş aşağıdakı məqalələrində və konfrans materiallarında öz əksini tapmışdır:**


1. Abdulla bəy Asinin dövrü və mühiti // – Bakı: Dil və ədəbiyyat , –2017. № 1 (100), – s. 265-268.
2. Abdulla bəy Asinin kimliyi ilkin mənbələrdə // – Bakı: Filologiya məsələləri, – 2017. № 2, – s. 297-301.
3. Abdulla bəy Asi "Məclisi-fəramuşan"ın fəal üzvü kimi // – Bakı: Filologiya məsələləri, – 2017. № 3, – s. 297-301.
4. Abdulla bəy Asi poeziyasında bədii ifadə vasitələri // Qlobal tendensiyalar və müasir Azərbaycan, –Respublika elmi konfransının materialları, –Mingəçevir:Avrora, –7-8 may, – 2018, – s. 429-432.
5. Abdulla bəy Asi şeirlərinin poetikası // – Bakı: Filologiya məsələləri, – 2018. № 14, – s. 338-345.
6. Особенности жизни и творчество Абдуллы беяАси. // –Ужгород: Закарпатськı фıлологıчнı студıı, –2018, №4, –в 3, –с.112-115.
7. Əlişir Nəvai poeziyasının Abdulla bəy Asi yaradıcılığına təsiri // Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu

mövzusunda beynəlxalq elmi konfrans. – Sumqayıt, – 04-05 dekabr, – 2018, – s.45-46.

8. Abdulla bəy Asinin dini şeirləri // – Sumqayıt: Elmi Xəbərlər, Sosial və humanitar elmlər bölməsi, –2020. №2, – s. 22-25.

9. Abdulla bəy Asinin məhəbbət lirikası // Dil, cəmiyyət, şəxsiyyət və Nizami Gəncəvi yaradıcılığı mövzusunda beynəlxalq elmi konfrans. – Sumqayıt, – 28-29 oktyabr, – 2021, – s.94-97.

10. Klasik Şərq və Azərbaycan ədəbiyyatının Abdulla bəy Asi yaradıcılığına təsiri //UYSAD 6 th International Conference on Management and Social Sciences, – İstanbul, – 16-18 yanvar, –2021, – s. 337-343.



Dissertasiyanın müdafiəsi 15 mart 2022-ci il tarixində saat 13:00 Sumqayıt Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.24 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ5008, Sumqayıt şəhəri, 43cü məhəllə. Sumqayıt Dövlət Universiteti

Dissertasiya ilə Sumqayıt Dövlət Universietinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Disstertasiya və avtoreferatın elektron versiyaları Sumqayıt Dövlət Universietinin rəsmi saytında (www sdu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 10 fevral 2022-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.02.2022
Kağızın formatı: 60*84 1/16
Həcm: 40 172
Tiraj: 100